# "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanununun tətbiqi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli 667-VQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikası Qanununun 20.10-cu maddəsində nəzərdə tutulmuş daşınar əmlakın yüklülüyünün dövlət reyestrinin aparılması qaydaları barədə təkliflərini iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.3. həmin Qanunun 27-ci maddəsində nəzərdə tutulmuş haqqın məbləği və bu haqqı ödəməkdən azadolmalar barədə təkliflərini 2 ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1. "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikası Qanununun 20.10-cu və 27-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Prezidenti nəzərdə tutulur;

2.2. həmin Qanunun 4.2.3-cü maddəsində "müvafiq icra hakimiyyəti orqanı" dedikdə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur;

2.3. həmin Qanunda nəzərdə tutulmuş daşınar əmlakın yüklülüyünün dövlət reyestrini *Azərbaycan Respublikasının Mərkəzi Bankı* aparır.[1]

3. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 24 may 2017-ci il
№ 1420

## FƏRMANA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

1. 4 sentyabr 2020-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 5 sentyabr 2020-ci il, № 178)**

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI

---

[1] 4 sentyabr 2020-ci il tarixli Azərbaycan Respublikası Prezidentinin Fərmanı **("Xalq" qəzeti, 5 sentyabr 2020-ci il, № 178)** ilə 2.3-cü bəndində "**Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası**" sözləri "**Azərbaycan Respublikasının Mərkəzi Bankı"** sözləri ilə əvəz edilmişdir.